Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

# Azərbaycan reallıqlarının dünyaya çatdırılmasında diasporumuzun yeni tərpənişləri...

**Müasir dünya siyasətinin hazırda transformasiya vəziyyətində olması müşahidə olunmaqdadır. Bu fonda qloballaşma şəraitində miqrasiya proseslərinin həcminin artması ilə əlaqədar həm iqtisadiyyat, həm də bir çox dövlətlərin siyasəti üçün ən mühüm xarici təsir rıçaqlarından biri diasporun rolu sürətlə artır.**



Həmçinin bu müstəvidə siyasət və onun əsasında qurulan lobbiçilik hərəkatı da getdikcə dünya siyasətində daha mühüm rol oynamağa başlayıb.

**ABŞ-da, digər Qərb ölkələrində erməni diaspor və lobbilərinə Azərbaycan icmaları artıq ciddi müqavimət göstərir**

Bəllidir ki, diaspor və xarici lobbiçilik ölkənin iqtisadi və siyasi maraqlarının təmsil olunmasının inkişaf etməkdə olan və kifayət qədər sivil formasıdır. Eyni zamanda, o da aydındır ki, yalnız geniş dövlət dəstəyi ilə doaspor qrupları beynəlxalq aləmdə daha ciddi nəticələrə nail ola bilər.

Güclü diasporun mövcudluğu adekvat lobbiçiliyi ərsəyə gətirən əsas şərtdir. Lobbiçilik bu gün ABŞ başda olmaqla Qərb dünyasında siyasi və sosial praktikanda mühüm bir fenomenə çevrilib. Xüsusən də Amerika Konstitusiyasında təsbit olunmuş lobbiçilik hüququ geniş şəkildə həyata keçirilir.

Ölkə vətəndaşlarına, müxtəlif diasporların nümayəndələrinə ölkənin siyasi həyatına təsir imkanlarının verilməsi buraa adi haldır. Peşəkar lobbiçilik burada faktiki olaraq hakimiyyətə təsirin təşkili yolu ilə həyata keçirilir. Qeyd edək ki, burada belə lobbiçilik mütəşəkkil qrupun özü və ya onun adından başqası tərəfindən reallaşdırılır. Beləliklə, lobbiçilik fəaliyyəti ilk növbədə həmin qrupun müvafiq spesifik maraqlarının həyata keçirilməsinə yönəldilir. Amerika siyasətində maraqlı tərəflərin rolu birbaşa və üzvi şəkildə ikipartiyalı sistemin vəziyyəti ilə bağlıdır. Qrup maraqları bütün spesifik formalarda təmin edilə bilir. Yəni etnik maraqlardan başlayaraq, lobbiçilik xidməti edən konqresmenin konkret qanun layihəsi ilə bağlı mövqeyini formalaşdırmağa kimi geniş spektri əhatə edə bilər. Qeyd edək ki, bu praktikadan Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdən ABŞ-dakı erməni diasporu və lobbisi həmişə geniş şəkildə istifadə edib. Lakin hazırda vəziyyət dəyişib. İstər ABŞ-da, istərsə də Avropada Azərbaycan erməni diasporuna və lobbisinə layiqli müqavimət göstərir. Bu, ölkəmizdə diaspor quruculuğu fonunda özünü qabarıq büruzə verir. Xüsuən də xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında milli-mənəvi birliyin möhkəmləndirilməsi, soydaşlarımızın təşkilatlanması prosesinin keyfiyyətcə yeni məzmun kəsb etməsi artıq öz sözünü deyir. Hazırda dünyanın müxtəlif ölkələrində yüzlərlə Azərbaycan icması fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir. Azərbaycanlıların yerli cəmiyyətə inteqrasiyasının sürətləndirilməsi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması Azərbaycan diasporunun qarşısında duran prioritet vəzifələrdir və bu da artıq praktiki müstəvidə özünü göstərir. Məsələn, elə ABŞ-da erməni lobbisi və diasporu artıq əvvəlki kimi istədiyi hər hədəfə nail olmur. Buna qarşı Azərbaycan diasporu da səmərəli müqavimət təşkil edə bilir. Eyni zamanda Türkiyə, yəhudi diaspor və lobbisi ilə genişlənən işbirliyi prosesdə öz söznü deyir. Bəllidir ki, diaspor və lobbiçilik fəaliyyəti müəyyən bir ölkənin milli maraqları ilə üst-üstə düşən və ya ziddiyyət təşkil etmədikdə təsirli olur. Ona görə də diaspor lobbiçilik fəaliyyətinin səmərəliliyini təmin etmək üçün diqqəti bu kimi məsələlərə yönəltmək lazımdır. Odur ki, lobbiçilik fəaliyyətini həyata keçirmək üçün diasporun hər bir icmasının mövcud siyasi reallıqları nəzərə alaraq fərdi yanaşması və öz imkanlarından çıxış edərək bu ölkədə uğur qazanması məqsədəuyğundur.

**Səmərəli lobbiçilik sistemi yaradan diasporlar daha böyük uğurlar əldə edirlər**

İstənilən ölkədə etnik diasporlar üçün vətənin taleyində iştirak öz kimliyini qoruyub saxlamaq mühüm əhəmiyyət kəsb edir. Bu, diasporu birləşdirən və səfərbər edən güclü vasitə rolunu oynayır. Eyni zamanda, etnik diasporlar həmvətənlərlə təmasda vətənin dövlət maraqlarının dirijoru kimi çıxış edirlər. Etnik diasporların cəmiyyətin və dövlətin həyatında iştirakı onların fəaliyyət göstərdikləri dövlətin öz ölkələrilə münasibətdə xarici siyasətinə təsiri ilə məhdudlaşmır, baxmayaraq ki, bu, ən vacib cəhətdir. Bu iştirak birbaşa iqtisadi və ya humanitar yardım, iqtisadiyyata investisiya qoyuluşu və ya diaspor nümayəndələrinin daxildə siyasi proseslərdə iştirakı kimi birbaşa formada da ola bilər. Burada nəzərə alınması vacib olan daha bir mühüm məqam diasporin fəaliyyət göstərdiyi ölkənin reallıqlarını, siyasi sistemini nəzərə almasıdır. Məsələn, Amerika demokratiyası sistemi bir çox etnik lobbilərə səsvermə və kampaniyanın maliyyələşdirilməsi yolu ilə xarici siyasətə təsir etməyə imkan verir. Bu, partiya sisteminin özünəməxsus xüsusiyyətləri, icra və qanunvericilik qolları arasındakı münasibət, həmçinin Amerika cəmiyyətinin plüralist təbiəti sayəsində mümkün olur. Bu mənada Azərbaycanın maraqları naminə, okeanın o tayında disaporumuzun artıq ABŞ-da seçki prosesində fəal olması, ona lobbiçilik edə biləcək şəxslərə geniş dəstək verməsi artıq zəruri haldır. Eyni sözləri Avropa barəsində də demək olar. Dünya təcrübəsi də göstərir ki, hazırda diaspor həm dövlət daxilində, həm də beynəlxalq aləmdə siyasi və iqtisadi münasibətlər sisteminin real iştirakçısına çevrilib. Bu gün onun nümayəndələri və yaratdıqları təşkilatlar öz korporativ maraqlarını açıq-aydın dərk edirlər və bunu yaşadıqları ölkələrdə reallaşdırmağa başlayırlar. Yuxarıda qeyd edildiyi kimi isə bir sıra ölkələrdə, o cümlədən Qərbdə lobbiçilik çoxdan diasporun özünün və ya onun nümayəndələrinin tam açıq və hüquqi iştirak formasına çevrilib. Səmərəli lobbiçilik sistemi yaradan bütün dünya diasporları, o cümlədən beynəlxalq təşkilatlar səviyyəsində fəaliyyətlərini təkcə maddi motivlər üzərində deyil, həm də vətənpərvərlik, xalqının taleyi üçün məsuliyyət hissi üzərində qururlar. Bunlar fəaliyyətində nəzərə alan Azərbaycan diasporu indi fəaliyyətində daha güclü hala gəlib. Daha böyük nəticələrə nail olunması üçün Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında diasporumuzun müxtəlif ölkələrin ictimai, siyasi və dövlət xadimləri, elm adamları, eləcə də media ilə əlaqələrin qurulmasına diqqəti çox mühümdür. Çünki bütün bunalr sonra ana vətən olan Azərbaycanın güclənməsinə xidmət edir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**